Səsvermə prosesi başa çatdıqdan sonra hakim partiyanın tərəfdarları paytaxt küçələrinə çıxıblar.
Yeni Azərbaycan Partiyasının və dövlət bayrağı ilə bəzədilmiş avtomobil karvanları paytaxtın mərkəzi küçə və prospektlərində siqnal verərək "qələbə" sevincini qeyd ediblər.

Bakının bəzi rayonlarında YAP-ın yerli təşkilatları qarşısında səsgücləndiricilər yerləşdirilib. Aksiyada YAP-dan olan deputatlar, hökumət rəsmiləri, gənclər və şəhər sakinləri iştirak edirlər.

Tədbirdə çıxış edən YAP sədrinin müavini, partiyanın icra katibi Əli Əhmədov bildirib ki, İlham Əliyevin qələbəsi Azərbaycan xalqının qələbəsidir.